# Bakı məktəblilərinin yaradıcılıq sərgisi

Bakıdakı 194 nömrəli tam orta məktəbdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş paytaxt məktəblilərinin əl işlərindən ibarət yaradıcılıq sərgisi keçirilib. Sərgidə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavinləri, sektor müdirləri, paytaxtın təhsil müəssisələrinin müəllim və şagird kollektivləri iştirak ediblər.

İstedadlı şagirdlərin təsviri incəsənət, dekorativ tətbiqi sənət, floristika, fauna, elmi texniki və dizayn sahələrini əks etdirən əl işləri, eyni zamanda 2-5 aprel 2016-cı il tarixlərində Qarabağ uğrunda gedən döyüşlərdə işğaldan azad edilmiş Lələ təpəyə aid maraqlı kompozisiya tədbir iştirakçılarının diqqətini cəlb edib.

Sonra şagirdlərin ifasında vətənpərvərlik mövzusuna həsr olunan mahnılar, şeirlər səslənib, 46 nömrəli



məktəbdənkənar Tərbiyə işi Mərkəzinin "Yallı" rəqs qrupunun çıxışları nümayiş olunub. 39 nömrəli məktəbdənkənar təhsil müəssisəsi şagirdlərinin al-əlvan atlas parçalardan hazırladıqları eksponatlar, gül kompozisiyası, Azərbaycan nağıl qəhrəmanlarının təsviri yüksək qiymətləndirilib.

Bu sərgi bir də onunla əlamətdar idi ki, müxtəlif sahələr üzrə xüsusi istedada malik olan uşaqların əl işləri, istedad və bacarıqları üzə çıxarılır, onlarda vətənə məhəbbət, dostluq, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hissləri tərbiyə olunur, bədii-estetik zövqləri, yaradıcı düşüncələri inkişaf etdirilirdi.

Mərasimdə məktəblilərin təqdim etdikləri ulu öndər Heydər Əliyevə və Azərbaycana həsr olunan ədəbi-bədii kompozisiya tədbir iştirakçılarının yaddaşında yaşanan bir çox tarixi məqamları yenilədi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Rəşad Tağıyev tədbirin hazırlanmasında əməyi olan pedaqoji kollektivlərə və istedadlı şagirdlərə təşəkkürünü ifadə edib.

Sonra isə ayrı-ayrı bölmələr üzrə təqdim olunan eksponatlara baxış keçirilib. Bölmələr üzrə sərgilənən 1334 əl işi içərisində ümummilli lider Heydər Əliyevin həyat və ictimai-siyasi fəaliyyətini özündə əks etdirən əl işləri üstünlük təşkil edib.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*